| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | HIST 107 Arxeologiya və Etnoqrafiyanın əsasları, 6 AKTS |
| | **Departament** | Tarix və Arxeologiya departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-ci tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Dr. Yaqub Məmmədov<br>Orxan Zamanov |
| | **E-mail:** | orkhan.zamanov@khazar.org<br>yagub.mammadov@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | |
| | **Məsləhət saatları** | **Müəllimin təyin etdiyi vaxtda** |
| **Prerekvizitlər** | **Yoxdur** | |
| **Tədris dili** | **Azərbaycan dili** | |
| **Fənnin növü (məcburi, seçmə)** | **Məcburi** | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Birinci hissə üçün ədəbiyyat və dərs materialı**<br>A. **Əsas:**<br>1. Mühazirə mətnləri*<br>2. Arxeologiya, T.M. Dostiyev. Bakı, 2020<br>3. Azərbaycan arxeologiyası, I cild (Daş dövrü), Bakı, 2008<br>4. Azərbaycan arxeologiyası, VI cild (Orta əsrlər dövrü), Bakı, 2008<br>5. Arxeoloji lüğət. T.M. Dostiyev. Bakı, 2018<br>6. Azərbaycan arxeologiyasının əsasları. Q.C.Cəbiyev. Bakı, 2018<br>7. Azərbaycanın qədim məskənləri. V.İ. Kərimov. Bakı, 2013.<br>B. **Əlavə:**<br>1. Гобустан наскальные изображения. И.М.Джафарзаде. Б.1973,s.334-339<br>2. Azərbaycan arxeologiyası jurnalı, Cild 22, № 1, 2019. 53-68 səh.<br>3. Azərbaycan arxeologiyası. V.Baxşəliyev. I cild, Bakı, 2006<br>4. Arxeoloqun çöl gündəliyindən. Q.S. İsmayılzadə. Bakı, 2009<br>5. Azərbaycanın maddi mədəniyyət tarixi. A.Mustafayev. Bakı, 2009,s.24-51<br>6. Azərbaycanın orta əsr şəhərləri (IX-XIII ə.ə.). T.M. Dostiyev. B.2016<br>7. Arkeolojide temel yöntemler. S.Ünlüsoy, C.Çakırlar, Ç.Çilingiroğlu. İstanbul, 2020<br><br>* Mühazirə mətnləri Археология. В начале. (К. ДеКорс, Б. Фаган. Москва, 2007), Археология. А.Мартынов. (Москва, 2008, 2012), Archaeology: The Whole Story. (P. Bahn, B. Fagan, London, 2017), Anadolu Arkeolojisi. (Veli Sevin, İstanbul, 2003) kitablarının bazasında hazırlanılır. Mövzu üzrə əlavə ədəbiyyat dərs zamanı tövsiyyə olunacaq.<br><br>**İkinci hissə üçün ədəbiyyat və dərs materialı**<br>**A. Əsas:**<br>1. **Nərgiz Quliyeva. Etnoqrafiya və Etnologiya, Bakı, 2009**<br>2. Həvilov H. Etnografiyanın əsasları. Bakı, 1991<br>3. **Arif Məmmədov. Arxeologiya və etnoqrafiya. Gəncə, 2008**<br>4. Azərbaycan etnoqrafiyası. I cild, Bakı, 2007<br>5. Azərbaycan etnoqrafiyası. II cild, Bakı, 2007<br>6. Azərbaycan etnoqrafiyası. III cild, Bakı, 2007<br>7. H.A.Həvilov. Dünya xalqlarının etnoqrafiyası. Bakı,1999 | |

| | | |
|---|---|---|
| | 8. Qəmərşah Cavadov. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Bakı, 2000.<br>7. M.Dadaşzadə. Azərbaycan xalgının orta əsr mənəvi mədəniyyəti. Bakı,1985<br>8. Səlimov-Şağani. Oyun və əyləncələr də bir tarixdir. Bakı, Elm, 1993<br>9. Mühazirələr<br>**B. Əlavə:**<br>1. Dünya xalqları (Tarixi-etnoqrafik ensiklopedik məlumat kitabı). Bakı, 1998<br>2. Ю.В.Бромлей, Г.Е.Марков. Этнография. Москва, 1982<br>3. С.И.Брук. Население мира. Этнодемографический справочник. Москва, 1986<br>4. Н.Г.Скворцов. Проблема этничности в социальной антропологии. Санкт-Петербург, 1996<br>5. Мид М. Культура и мир детства. Москва, «Наука», 1988.<br>6. Этнография детства. Традиционные методы воспитания детей у народов Австралии, Океании и Индонезии. Москва, «Наука», 1992<br>7. Кон И. С. Мальчик — отец мужчины. Москва. Время, 2009<br>8. Боас Ф. История и наука в антропологии: ответ / Пер. Ю.С.Терентьева Антология исследований культуры. Санкт-Петербург, Университетская книга, 1997 | |
| **Kursun veb saytı** | www.arxeoloq.az<br>www.azerbaijanarcheology.com | |
| **Kursun təsviri və məqsədləri** | "Arxeologiya və Etnoqrafiyanın əsasları" fənni Azərbaycan Respublikasının ali tarix təhsili sistemində tarix müəllimliyi üçün tədris olunan zəruri fənnlərdəndir. Fənnin tədrisini zəruri edən əsas amillər–insanlıq tarixinin və onun maddi-mədəni irsinin öyrənilməsinə yeni fənnlərarası baxışın tətbiqi və elmi texniki tərəqqi dövrünün tələblərinə uyğun yeni üsul və metodların arxeologiya və etnoqrafiya elminə sirayət etməsilə bəşəriyyətin tarixi inkişafının qanunauyğunluqlarını tətbiqi üçün müasir elmi tədqiqatın üstün cəhətlərinin öyrədilməsi, müasir cəmiyyətin və sivilizasiyanın yaranmasının, inkişafının səbəblərinin araşdırılmasında təbii, etnik və ictimai amillərin qarşılıqlı rolunun üzə çıxarılmasıdır.<br>"Arxeologiya və Etnoqrafiyanın əsasları" kursunun başlıca məqsədi-tələbələrdə insan və onun ümumi maddi-mədəni irsi haqqında, onun yaranması, mərhələləri və genişlənməsi haqqında elmi-nəzəri biliklərin formalaşdırmaqdır. | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Fənnin ümumi tədrisi prosesində tələbələrdə:**<br>• Bəşəriyyətin və onun maddi-mədəniyyətinin özünəməxsusluğu araşdırılacaqdır,<br>• İnsan sivilizasiyanın mənşəyi elmi əsasda öyrəniləcəkdir,<br>• İnsan cəmiyyətinin və mədəniyyətinin yaranması, tarixi inkişaf xüsusiyyətləri öyrəniləcək,<br>• İnsanlığın yaranışından müasir dövrə kimi mövcud tarixinin ən önəmli hadisələri haqqında tam təsəvvür formalaşacaqdır,<br>• Cəmiyyətdəki etnik və etnoqrafik proseslərin mahiyyətinin dərkinə yön vermək,<br>• Etnik özünəməxsusluğun kriteriyalarının: mədəniyyətin və linqivistik amillərin, eləcə də, təbii və sosial mühitin təsirlərini haqqında təsəvvür yaratmaqdır. | |
| **Tədris metodları** | **Mühazirə** | **X** |
| | **Qrup müzakirəsi** | **X** |

| | | | |
|---|---|---|---|
| | **Praktiki tapşırıqlar** | **X** | |
| | **Praktiki məsələnin təhlili** | **X** | |
| | **Digər** | **X** | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%), bal** |
| | **Aralıq imtahanı** | **Noyabr** | **35 bal** |
| | **Aktivlik** | **Semestr ərzində** | **10 bal** |
| | **Yoxlama yazı işi (quiz)** | **Aralıq imtahanı öncəsi**<br>**Final imtahanı öncəsi** | **10 bal (5+5)** |
| | **Prezentasiya/Qrup müzakirə/Layihə** | **Müəllimin təyin etdiyi vaxtda** | **10 bal** |
| | **Final imtahanı** | **Yanvar** | **35 bal** |
| | **Yekun** | | **100 bal** |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Aktivlik**<br>Tam aktivlik balı dərslərdə, diskussiyalarda, prezentasiyalarda və elmi seminarlarda fəal iştirak edən tələbələrə verilir.<br>**Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbə müəyyən üzürlü səbəblərdən (xəstəlik, ailə vəziyyəti və s.) dərslərdə iştirak edə bilmirsə, o zaman bu haqda fakültə dekanlığına məlumat təqdim etməlidir. Fənn üzrə ümumi dərs saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>**Dərsə gecikmə**<br>Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qayıb yazılır. Buna baxmayaraq, tələbə dərsdə iştirak edə bilər.<br>**Yoxlama yazı işi**<br>Kurs boyu iki yoxlama yazı keçirilməsi nəzərdə tutulur. Birinci yazı aralıq imtahanı öncəsi, ikincisi yekun imtahan qabağı. Hər yoxlama işi 5 bal ilə qiymətləndirilir.<br>Yoxlama işində iştirak etməyən tələbə qeyri-müvəffəq qiymət alır. Əgər tələbə üzürlü səbəbdən yoxlama işində iştirak edə bilməmiş və bu haqda dekanlığa məlumat vermişsə, o zaman həmin tələbə yoxlama işini təkrar olmamaqla növbəti həftə yaza bilər.<br>**Yazı işi/Esse**<br>UNESCO-nun Maddi və Qeyri-maddi mədəni irsi siyahısına daxil olan Azərbaycanın maddi və mənəvi irsi əsasında esse tərtibi.<br>**Qeyd:** Plagiat halları qəti qadağandır! Sərbəst işlə əlaqədar bütün tapşırıqların qısa təsviri, təqdim olunma şərtləri, vaxtı və qiymətləndirmə üsulu dəqiq göstərilir. Eləcə də, bu tapşırıq müəllim tərəfindən başqa praktiki tapşırıqla əvəzlənə və ya dəyişdirilə bilər.<br>**Prezentasiya/Qrup müzakirə/Layihə**<br>Arxeologiyadan əyani qrup işi və muzeydə praktik fəaliyyət nəzərdə tutulur. Vaxt müəllim tərəfindən dərsdə elan ediləcək.<br>**İmtahanlar**<br>Aralıq imtahanı (imtahanın keçirilməsi forması-yazılı, test və açıq suallar) sentyabr<br>və oktyabr aylarında keçirilən dərsləri (1-14-cü mövzular) əhatə edir. | | |

<table>
<tr><td></td><td>Final imtahanı (imtahanın keçirilməsi forması-yazılı, test və açıq suallar) noyabr<br>və dekabr aylarında keçirilən dərsləri (15-31-ci mövzular) əhatə edir.<br>Aralıq və yekun imtahanının mövzuları tələbələrə imtahandan əvvəl verilir. Aralıq<br>imtahanının sualları yekun imtahanında təkrarlanmır.<br>İmtahan qaydalarının pozuntuları<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişinin pozulması, imtahanda istifadəsinə yol verilməyən əlavə vəsaitlərdən (kitab, konspekt-dəftər, mövzunun yazıldığı vərəq, telefon, diktofon, mikrodinləyici qurğu və s.) istifadə edilməsi və köçürmə qadağandır. Bu qaydaya əməl etməyən tələbə imtahan zalından çıxarılır, onun imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymətlə imtahandan kənarlaşdırılır.<br>Fənni bitirmək qaydası<br>Universitetin qaydalarına uyğun olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 və daha çox hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>Tələbənin davranış qaydaları<br>Dərs zamanı dərs prosesini pozmaq və qeyri-etik hərəkətlər etmək, yersiz və icazəsiz müzakirələr aparmaq, mobil telefondan, dinləyici qurğu və radiodan istifadə etmək, həmin dərsə aid olmayan digər fəaliyyətlə (kitab oxumaq, yazmaq, şəkil çəkmək və s.) məşğul olmaq qadağandır.</td></tr>
</table>

**Cədvəl (dəyişdirilə bilər)**

| **Həftə** | **Tarix** | **Fənnin mövzuları**<br>**Birinci hissə (Arxeologiya)** | **Dərslik/**<br>**Tapşırıqlar** |
|---|---|---|---|
| 1. | | *Fənnlə və sillabusla ümumi tanışlıq*.<br>**Mövzu 1.** Arxeologiyanın tərifi, predmeti, tədqiqat obyekti və vəzifələri. Arxeologiya elminin quruluşu. Arxeologiyanın inkişaf tarixi. Arxeologiyanın bir elm kimi formalaşması və təşkilatlanması.<br>**Mövzu 2.** Arxeologiyanın tədqiqat metodları və üsulları. Arxeoloji dövrləşmə və xronoloji amillər. Arxeologiyanın digər elmlərlə əlaqəsi və insanlıq keçmişini öyrənən elm sahələri içərisində arxeologiyanın yeri. Arxeologiyanın köməkçi elm və fənləri. | A1,4 B 4,5,6.<br><br>A1,4,5; B 4. |
| 2. | | **Mövzu 3.** Daş dövrü arxeologiyası və İnsanın yaranması problemi arxeologiyada. Daş dövrünün ümumi səciyyəsi və dövrləşməsi<br>**Mövzu 4.** Davamı və Məşğələ: “İbtidai incəsənət və ibtidai insanların mənəvi aləminin maddi qalıqlarının öyrənilməsi məsələsi” | A 1, 2, 5 B 1, 3<br><br>Davamı |
| 3. | | **Mövzu 5.** Tunc dövrü arxeologiyası və Paleometal dövrünün tədqiqi problemi.<br>**Mövzu 6.** Məşğələ: “Qədim Şərqin arxeoloji tədqiqi tarixi və onun tarix elmi üçün əhəmiyyəti” | A 1,5 B 4 |
| 4. | | **Mövzu 7.** Erkən dəmir dövrü arxeologiyası və dövlətlərin yaranmasına qədərki arxeologiya.<br>**Mövzu 8.** Məşğələ: “Türk xalqlarının arxeologiyasının öyrənilməsi. Türk dünyasının maddi-mədəni irsi və arxeoloji izləri” | A 1,5 B 2, 3 |

| | | | |
|---|---|---|---|
| 5. | | **Mövzu 9.** Antik Arxeologiya (e.ə. V – er. V əsrləri)<br>**Mövzu 10.** Məşğələ: "QədimYunanıstanın və Qədim Romanın mədəni təsiri arxeologiyada" | A 1, 5 B 5 |
| 6. | | **Mövzu 11.** Orta Əsr və İslam Arxeologiyası (er. VI – XVI əsrləri). Azərbaycanın və müsəlman Şərqinin şəhər mədəniyyəti və şəhərsalma ənənəsinin tədqiqi problemi.<br>**Mövzu 12.** Məşğələ: "Avropa və Asiya xalqlarının arxeoloji tədqiqi. Avrasiyanın və Amerikanın maddi-mədəni irsi" | A 3,5 B 5,6 |
| 7. | | **Mövzu 13. (YOXLAMA)**<br>**Mövzu 14.** İndustrial Arxeologiya və ya Yeni dövr arxeologiyasının tədqiqi (er. XVII-XX əsrləri). "Böyük Coğrafi Kəşflər" və "Sənaye çevrilişi" dövrünün öyrənilməsi və onun ədəmiyyəti məsələsi.<br>**Mövzu 15. ARALIQ İMTAHANI** | A 1,4 B 2 |
| | | | |
| 8. | | **Mövzu 16.** Etnoqrafiya barədə ümumi məlumat. Etnoqrafiyanın predmeti, mənbələri, vəzifələri və tədqiqat metodları. Dünya xalqlarının təsnifat növləri. | 7 – 3/38 səh. |
| | | **Mövzu 17.** Azərbaycan etnoqrafiyasının tarixi. | 2 -5/23 səh. |
| 9. | | **Mövzu 18.** Azərbaycan xalqının etnik və konfessional tərkibi, demoqrafik göstəricilər, linqvistik və irqi xəsiyyətnaməsi. | 2- 23/43 səh. |
| | | **Movzu 19.** Azərbaycan xalqının sənətkarlıq mədəniyyəti. Sənətkarlıq sahələri. | 2 – 73/113 səh.<br>4 – 353/496 səh. |
| 10. | | **Movzu 20.** Azərbaycan xalqının yaşayış məskənləri və yaşayış evləri. | 2 – 113/140 səh.<br>5 – 15-97 səh. |
| | | **Movzu 21.** Azərbaycan xalqının geyim və bəzəkləri. | 2 – 140/162 səh.<br>5 – 99-189 səh. |
| 11. | | **Mövzu 22.** Azərbaycan xalqının yeməkləri və içkiləri. | 2 -162/184 səh,<br>5 – 198/290 səh. |
| | | **Mövzu 23.** Azərbaycan xalqının nəqliyyat vasitələri. | 2-184/198 səh.<br>5- 293/348 səh. |
| 12. | | **Mövzu 24.** Azərbaycanın əkinçilik mədəniyyəti. | 2 – 43/54 səh<br>4 – 67/216 səh. |
| | | **Mövzu 25.** Azərbaycanın maldarlıq mədəniyyəti. | 2 – 55/ 72 səh<br>4 – 216/329 |

| | | | |
|---|---|---|---|
| | | | səh. |
| 13. | | **Mövzu 26.** Bağçılıq, arıçılıq və ipəkçilik mədəniyyəti. | Milli Azərbaycan Tarixi Muzeyi |
| | | **Mövzu 27. Mövzu 13. (YOXLAMA)** | |
| 14. | | **Mövzu 28.** Azərbaycan xalqının ailə, nikah, toy, uşaqların tərbiyəsi və dəfn mərasimi haqqında | 2 – 198/223 səh.<br>6 – 349/413 səh. |
| | | **Mövzu 29.** Azərbaycan xalqının mənəvi mədəniyyəti. | 2 – 223/249 səh.<br>6 – 143/263 səh. |
| 15. | | **Mövzu 30.** Xalq bayramları, milli adət və ənənələr, xalq oyunları və tamaşaları. | 6 – 13-83 səh. |
| | | **Mövzu 31.** YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş Azərbaycan maddi və mənəvi mədəniyyəti nümunələri. | Mühazirə |
| 16. | | **Mövzu 32. (YOXLAMA)**. | |
| **FİNAL İMTAHANI** | | | |